**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XALQ RƏSSAMI HÜSEYNQULU ƏLİYEVİN YARADICILIQ YOLU

İxtisas: 6203.01 – İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Fatma Adil qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Təsviri və dekorativ-tətbiqi sənətlər" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** sənətşünaslıq doktoru, professor
**Sevil Yusif qızı Sadıxova**

**Rəsmi opponentlər:** Xalq rəssamı, professor
**Arif Şahbaz oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Afaq Böyükağa qızı Hüseynova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Əsmər Vidadi qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Memarlıq və İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq doktoru, professor, AMEA-nın müxbir üzvü
**Ərtegin Əbdül Vahab oğlu Salamzadə**

______________

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xəzər Arif oğlu Zeynalov**

______________

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, professor
**Rəna Həbib qızı Abdullayeva**

______________

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı və işlənmə dərəcəsi**. Hüseynqulu Əliyev Azərbaycan təsviri sənətinin, eləcə də sənətşünaslığının inkişafında böyük rola malik rəssamlardandır. Bu kontekstdə rəssamın əsərlərinin təhlili, dinamizmi, bədii təsvir metodları, janrları, mövzu dairəsinin öyrənilməsi son dərəcə aktualdır.

Azərbaycanın ayrılmaz hissəsi Naxçıvanın yetişdirdiyi Azərbaycan təsviri sənətinin və heykəltəraşlığın inkişafında özünəməxsus mühüm xidmətləri olan, Azərbaycan Respublikasının Xalq rəssamı, Azərbaycan Rəssamlar və Teatr Xadimləri İttifaqlarının üzvü, tanınmış fırça və tişə ustası, istedadlı rəssam və heykəltəraş Hüseynqulu Əliyev geniş yaradıcılıq diapazonuna malikdir. Yaradıcılığında heykəltəraşlığın monumental abidə, portret, büst, barelyef növlərində, təsviri sənətin məişət, portret, mənzərə, natürmort janrlarında, həmçinin monumental rəngkarlıq, illüstrasiya, teatr rəssamlığı kimi mövzularda uğurla fəaliyyət göstətmişdir. Akademik İsa Həbibbəyli *"Xalq rəssamının mahir fırçası ilə yaratdığı "Ümummilli lider" portretində görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini dünyada tanıtmaq uğrunda apardığı mübarizə istedadla seçilmiş detallarla ifadə olunmuşdur"*[1].

Hüseynqulu Əliyev Azərbaycan Dövlət Rəssamlıq Məktəbində və Mirzə Ağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitunun Rəssamlıq fakültəsində təhsil almışdır[2]. O, bu sənət ocağında ona dərs deyən Azərbaycanın rəssamlıq sənətinin görkəmli ustadları – Lətif Kərimov, Toğrul Nərimanbəyov, Tokay Məmmədov və başqalarının əsasını qoyduğu iki istiqamətin – rəssamlığın, heykəltəraşlığın sirlərini daha dərindən öyrənmiş öz yaradıcılığında inkişaf etdirmişdir.

Geniş yaradıcılıq diapazonu ilə seçilən, Azərbaycanın çox istedadlı rəssamlarından olan Hüseynqulu Əliyevin təsviri sənətin

---

[1] Həbibbəyli, İ. Professional rəssam və mahir heykəltəraş // "525-ci qəzet". – 2019, 9 fevral, – s.10-11.

[2] Nəcəfov, M. Azərbaycanın karikaturaçı rəssamları. / M.Nəcəfov – Bakı: İşıq, – 1972. -s. 158.

müxtəlif sahələrində ərsəyə gətirdiyi yaradıcılıq nümunələri realistik janrın imkan verdiyi maksimum təsir gücü ilə hər zaman tamaşaçılarının diqqət mərkəzində olmuşdur. Belə nümunələr sırasında "Gözləri yolda", "Düşüncələr", "Yol üstündə", "Cəllad" və digər bu kimi əsərlərinin adlarını qeyd etmək olar.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri olaraq 2000-2011-ci illərdə Hüseynqulu Əliyev muxtar respublikada rəssamlıq sənətinin inkişaf etdirilməsinə bacarıqla xidmət etmişdir. O, Naxçıvan rəssamlıq tarixində öz dəsti-xəttini yaratmağı bacaran sənətkarlardandır.

Yuxarıda göstərilən bu və digər mühüm xüsusiyyətləri nəzərə alaraq, təqdim olunan tədqiqat işi aktual problem kimi xalq rəssamı Hüseynqulu Əliyevin yüksək bədii xüsusiyyətləri ilə seçilən yaradıcılığını əhatəli şəkildə araşdırmağı nəzərdə tutmuşdur.

Xalq rəssamı Hüseynqulu Əliyevin yaradıcılığı haqda bir çox mətbu orqanlarında, internet saytlarında və televiziya verilişlərində məlumat verilmişdir.

Sənətkarın yaradıcılığının müxtəlif dövrlərini dərk etmək üçün, haqqında yazılan qəzet məqalələrini, publisistik materialları diqqətlə nəzərdən keçirmək vacibdir. Burada rəssamın fərqli janrlarda, incəsənətin müxtəlif sahələrində yaratdığı əsərlər diqqət mərkəzində olmaqdadır. Bu sırada akademik İsa Həbibbəylinin "525-ci qəzet"də çap etdirdiyi "Professional rəssam və mahir heykəltəraş"[3], Ü.Veysəllinin "Musiqi dünyası" jurnalında çıxmış "Hüseynqulu Əliyevin yaradıcılığında janr və üslub müxtəlifliyi"[4], S.Sadıxovanın "Əlvan rənglər dünyası: Xalq rəssamı Hüseynqulu Əliyev təsviri sənətin müxtəlif sahələrində özünü ustad sənətkar kimi təsdiqləyib"[5] və "Xalq rəssamı Hüseynqulu Əliyevin sənət dünyası" albom-

---

[3] Həbibbəyli, İ. Professional rəssam və mahir heykəltaraş // "525-ci qəzet". – 2019. – 9 fevral, s-10-11.

[4] Veysəlli, Ü.N. Naxçıvan rəssamlarının yaradıcılığında üslub və istiqamətlər/ Namiz. Diss.avtoreferatı. – Bakı: -2011. – s.25 .

[5] Sadıxova, S. Əlvan rənglər dünyası: Xalq rəssamı Hüseynqulu Əliyev təsviri sənətin müxtəlif sahələrində özünü ustad sənətkar kimi təsdiqləyib // "Mədəniyyət" jurnalı, – 2022, 6 yanvar

monoqrafiyasını[6], F. Əhmədovanın "Xalq rəssamı Hüseynqulu Əliyevin rəngkarlıq əsərlərində janr müxtəlifliyi"[7] və s. qeyd etmək olar.

Həmin məqalələrdə Hüseynqulu Əliyevin professional rəssam kimi Azərbaycan rəssamlıq tarixinin inkişafında oynadığı böyük rol, gördüyü işlər, onun nəzəri-estetik fikirləri işıqlandırılmış, müxtəlif janrlarda yaratdığı əsərlərin elmi və sənətkarlıq xüsusiyyətləri təhlil olunmuşdur.

Rəssamın əsərlərinin öyrənilməsi çağdaş dövrdə Naxçıvanda yaşayıb yaradan rəssamların yardıcılıq yolunu dərk etmək, mövzu dairəsi haqqında fikir söyləmək baxımından da son dərəcə əhəmiyyətlidir.

Bunlarla yanaşı, sənətkarın çoxşaxəli yaradıcılığı geniş şəkildə araşdırlımadığından, rəssamın yaradıcılıq yolunun və əsərlərinin araşdırılmasına ciddi ehtiyac yaranmışdır. Xalq rəssamı Hüseynqulu Əliyevin yaradıcılıq yolu məhz bu dissertasiyada ilk dəfə kompleks şəkildə tədqiqata cəlb olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Xalq rəssamı Hüseynqulu Əliyevin müxtəlif mövzu və bədii ifadə vasitələrinə xas rəngkarlıq, qrafika, heykəltəraşlıq və teatr tamaşarına işləmiş dekorasiya və geyim eskizləri təşkil edir.

Tədqiqatın predmeti kimi 1970-cı illərdən başlayaraq bu günə kimi Azərbaycan rəssamlığının inkişafında Xalq rəssamı Hüseynqulu Əliyevin yaradıcılığının rolunu və yerini araşdırmaq təşkil edir. Rəssamın yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orjinal ifadə vasitələrinin təhlili tədqiqat predmetinin qayəsini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanın Xalq rəssamı Hüseynqulu Əliyevin illər boyu işlədiyi yaradıcılığına məxsus təsviri sənətin müxtəlif sahələrində yaratdığı əsərlərini təhlil etmək, eləcə də elmi araşdırmalarının nəzəri aktuallığını və yeniliyini

---

[6] Sadıxova, S. Xalq rəssamı Hüseynqulu Əliyevin sənət dünyası. Albom-monoqrafiya / S.Sadıxova. – Naxçıvan: Əcəmi, – 2019. – 176 s.

[7] Əhmədova, F. Xalq rəssamı Hüseynqulu Əliyevin rəngkarlıq əsərlərində janr müxtəlifliyi // AMEA-nın Naxçıvan Bölməsinin "Xəbərləri", İctimai və humanitar elmlər seriyası. – 2019, №3. – s. 259-264.

müəyyənləşdirmək, bütün bu yaradıcılıq fəaliyyətinə müasir dövrün prizmasından yanaşmaq tədqiqatın başlıca məqsədlərindəndir.

Hüseynqulu Əliyevin yaradıcılıq yolunun öyrənilməsi, əsərlərinin təhlilinin çağdaş Azərbaycan incəsənəti kontekstində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Rəngkarlıq, qrafika və heykəltəraşlıq əsərlərinin toplanması və təsnif edilməsi;
- Son illərdə yaradılan və elmi təhlilə cəlb olunmayan əsərlərinin öyrənilməsi;
- Hüseynqulu Əliyevin yaradıcılığında özünəməxsus yer tutan insan yaşantılarının bədii əksini araşdırılması;
- Sənətkarın yaradıcılığında portret janrının bədii xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- Hüseynqulu Əliyevin yüksək təsvir gücünə malik yaradıcılığında fəlsəfi düşüncənin bədii əksinin araşdırılması məsələsinə diqqət çəkmək;
- Hüseynqulu Əliyevin heykəltəraşlıq əsərlərinin bədii xüsusiyyətlərinin kompleks şəkildə öyrənilməsi;
- Rəssamın əsərlərində təbiətə sevgi, ehtiram, motivlərini müəyyənləşdirmək, təbiətin əsas mərkəzi obraza çevrilmə probleminin bədii ifadə metodlarını tədqiq etmək;
- Xalq rəssamının əsərlərində dinamizmin özünəməxsusluğunun araşdırılması;
- Sənətkarın Naxçıvan Musiqili Dram Teatrına töhfələrinin tədqiqata cəlb olunması;

**Tədqiqatın metodları.** Tədqiqat işində araşdırılan problemlərin təhlili istiqamətində başlıca olaraq sənətşünaslıq təhlili, tarixi-müqayisəli metodlardan istifadə olunmuşdur. Faktiki material hərtərəfli təhlil edilmiş, imkan daxilində bütün təsviri sənət əsərləri: rəngkarlıq, qrafika və heykəltəraşlıq nümunələri nəzərdən keçirilmişdir.

Dissertasiyada növ və janrlar üzrə bölgü, müqayisəli təhlil prinsipindən istifadə olunub. Dissertasiyanın yazılışında müasir kulturoloji fikrin və sənətşünaslığın nəzəri müddəaları və nəticələrindən yararlanmışıq. Metodoloji baza kimi Azərbaycan tədqiqatçılarının bu mövzuya həsr olunmuş fikirləri, nəticə və

nailiyyətləri əsas götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Xalq rəssamı Hüseynqulu Əliyevin təsviri sənətin istər qrafika, istərsə də rəngkarlıq sahəsində yaratdığı bir çox süjetli kompozisiyalarında simvollaşdırılmış bədii ifadə vasitələrindən istifadə olunmuşdur;
- Hüseynqulu Əliyevin əksər əsərlərində Azərbaycan məfkurəsi, millilik məsələləri ön plana çəkilmişdir;
- Rəssamın mücərrəd kompozisiya quruluşlarında fəlsəfi düşüncənin bədii ifadəsi öz əksini tapmışdır;
- Hüseynqulu Əliyev heykəltəraşlıq sahəsində yaratdığı əsərlərdə fərqli texniki vasitələrə və ifadə metodlarına müraciət etmiş, yaradıcılığında yerli və dünyəvi mövzulara yer ayırmışdır;
- Hüseynqulu Əliyevin mənzərə və natürmort janrlarında yaratdığı əsərlərində təbiətə olan vurğunluq, heyranlıq fonunda doğma yurda olan dərin sevgi, bağlılıq motivi əks olunmuşdur;
- Rəssamın karikatura və plakat əsərləri dinamik kompozisiya quruluşuna malikdir;
- Rəssamın yaradıcılıq yolunun öyrənilməsi, onun çağdaş Azərbaycan incəsənətində oynadığı əhəmiyyətli rol, eyni zamanda təsvir etdiyi sənətkarlıq nümunələrinin fərqliliyi baxımından son dərəcə əhəmiyyətlidir.

**Tədqiqatın elmi yeniliyi.** Hüseynqulu Əliyevin indiyə qədər tədqiqat obyektinə çevrilməyən bir çox sənət əsərləri elmi-nəzəri təhlilə cəlb olunmuş, rəssamın əsərlərində yer alan geniş spektrli mövzu dairəsi araşdırılmışdır. Tədqiqat obyektinin elmi yeniliyi aşağıda göstərilən müddəalarda öz əksini tapmışdır:

- Dissertasiyada ilk dəfə olaraq çağdaş Azərbaycan incəsənətinin böyük dövrünü əks etdirən Hüseynqulu Əliyevin yaradıcılıq fəaliyyəti əhatəli şəkildə araşdırılmışdır;
- Rəssamın çoxillik yaradıcılığı ayrı-ayrı mərhələlərə bölünərək, inkişaf istiqamətləri və yaradıcılıq nailiyyətləri müəyyənləşdirilmişdir;
- Rəssamın müxtəlif janrlarda işlədiyi rəngkarlıq və qrafika əsərlərinin bədii xüsusiyyətlərini müəyyən edərkən məkan, obraz və elementlər arasındakı uğurlu əlaqələndirmə üzə çıxarılmışdır;

- Hüseynqulu Əliyevin müxtəlif materiallardan və texnikada yaratdığı heykəltəraşlıq əsərlərinin plastik həlli üzə çıxarılmışdır;
- İlk dəfə olaraq rəssamın karikatura və plakat əsərləri tədqiqat obyektinə çevrilmişdir;
- Rəssamın müxtəlif muzeylərdə, şəxsi fondlarda qorunub saxlanılan əsərlərinin siyahısı hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırkı tədqiqat Azərbaycan təsviri sənətinin və sənətşünaslıq elminin ümumi inkişafında Xalq rəssamı Hüseynqulu Əliyevin elmi fəaliyyətinin rolunu, yerini və yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan incəsənətinin zənginliyini, növ və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas təhsili müəssisələrində rəssam və sənətşünas tələbələrə “Azərbaycan incəsənəti” fənni çərçivəsində tədrisində istifadə oluna bilər. Rəssamın yaradıcılıq təcrübəsinə aid müddəalar gənc rəssamlar üçün əməli tövsiyələr kimi faydalıdır.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın mövzusu ilə bağlı beynəlxalq və respublika səviyyəli elmi-nəzəri konfranslarda məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 237828 işarədən ibarətdir. Giriş 11188 işarədən, I Fəsil 108389 işarədən, II Fəsil 111895, nəticə isə 6355 işarədən ibarətdir.

Mövzunu əks etdirən illüstrasiyalar isə ayrıca cilddə (dissertasiyaya əlavədə) təqdim edilir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, onun məqsədi və qarşıya qoyulan vəzifələri müəyyən edilmiş, elmi yeniliyi, daşıdığı nəzəri və praktik əhəmiyyəti, quruluşu, həcmi barədə məlumatlar öz əksini tapmışdır.

**I Fəsil "Xalq rəssamı Hüseynqulu Əliyevin yaradıcılığında bədii ifadə axtarışları"** adlanır və üç paraqrafdan ibarətdir. Fəslin **"Hüseynqulu Əliyevin yaradıcılığında insan yaşantılarının bədii əksi"** mövzusunda olan **I paraqrafında** qeyd olunur ki, Xalq rəssamı yaradıcılığında daha çox xalqın həyatı, onun yaşantıları, yaxın tariximizin adi insan talelərinə göstərdiyi təsirlərin özünəməxsus bədii ifadəsinə xüsusi əhəmiyyət vermişdir.

Rəssamın realistik janrda işlədiyi "Düşüncələr" adlı tablosunda bir qadının dərin düşüncələrə dalmış qəmgin siması diqqəti cəlb edir. İlk baxışda sadə bir mənzil və sıradan olan bir ailənin tərənnümü ilə qarşılaşsaq da, əsərin təqdim etdiyi dərin məzmun bütün element və detalların tərənnümündə diqqəti cəlb edir. Masanın ətrafında olan iki övlad və başı qara çadralı ananın iztirablı sifət cizgiləri onun dərdli dünyasından xəbər verir.

Hüseynqulu Əliyev koloritdən güclü emosional təsir vasitəsi kimi istifadə edərək əsərlərinin ekspressivliyini artıran, onun həyəcan dolu reallığını tamaşaçısına məharətlə çatdıran rəssamlardandır. Belə əsərlərindən olan "Cəllad" adlı tablosunda al qırmızı qan rənginə boyanmış mühit daxilində quru ağacın budağından asılmış insan cəsədi sərt küləyin dalğaları altında çarpışan camaşırların fonunda verilib. Təsir gücünü torpağın üstündəki ağ ləkənin üzərində olan qana bulanmış ayaq izləri gücləndirir. Kompozisiyada ağ, qara və qırmızı rənglərin təzadlı keçidindən istifadə edən rəssam, gərgin emosionallıq əldə etməyə nail olmuşdur.

Xalq rəssamının yaradıcılığını izlədikdə onun daha çox xalqın həyatı, onun yaşantıları, yaxın tariximizin adi insan talelərinə göstərdiyi təsirlərin özünəməxsus bədii ifadəsinə xüsusi əhəmiyyət verdiyinin şahidi oluruq. "Mənim ailəm" adlı çox fiqurlu kompozisiyada bir ailənin narahatlığı, hər bir obrazın bu halın fərqli emosiyalarla ifadə etməsinə baxmayaraq onları birləşdirən doğmalığın çalarları xüsusi sənətkarlıqla

həyata keçirilmişdir.

Hüseynqulu Əliyevin daxili hisslərin tərənnümünü həssaslıqla ifadə etdiyi əsərlərindən biri də “Ayrılıq” adlanır. Rəssam qeyd edilən bu əsərində ayrılıq səhnəsini deyil, ayrılığın gətirdiyi iztirablı yaşantıları ifadə edərək izləyicisinin marağına səbəb olmuşdur.

Hüseynqulu Əliyevin məkan və insan sintezinin məharətli ifadəsində təqdim etdiyi dolğun kompozisiya quruluşuna malik əsərlərindən “Yol üstündə” tablosunu xüsusi vurğulamaq olar.

Rəssamın bütün əsərlərində insani yaşantıların dərin ifadəsi özünəməxsus şəkildə həllini taparaq hər zaman tamaşaçılarının diqqətini cəlb etmişdir. Misal olaraq, 1983-cü ildə yaradılmış “İncəsənətdə insan gözəlliyi” əsərində sənətkar və sənət əlaqələndirilməsi zamanı istedadlı rəssamın fərqli sahələrin əslində bir amala qulluq edən məqsədini müxtəlif kompozisiya quruluşunda təqdim etməsi maraq doğurur. Burada bir sənətkar yaşantıları, yaradıcılıq və nəticənin bir kompozisiya quruluşunda bitkin şəkildə önə çıxması məhz əsərin özünəməxsusluğunu şərtləndirir. Arxa planda Xalq rəssamı Tahir Salahovun bəstəkar Qara Qarayevə həsr edilmiş qara royalın qarşısında əllərini çənəsinə dayayaraq düşüncələrə qapılmış təsviri canlandırılmışdır. Heykəlin yan hissəsində isə rəssamlıq ixtisaslarında tədris edilən “İncəsənətdə insan gözəlliyi” adlı kitabın rus dilində olan variantı öz əksini tapmışdır. Bütün bunları bir araya gətirən rəssamın məqsədi incəsənətin əsasında həm xarici, həm də mənəvi olaraq, ruhən insan gözəlliyinin dayandığını və bunun bütün sahələrdə eyni şəkildə özünü göstərdiyini ifadə etməkdən ibarətdir.

Xalqımızın başına gələn 1990-cı illərdə yaşanmış faciələrin ağırlığını əks etdirən tablolarında rəssam daha çox isti çalarların ifadəsində təsirli kompozisiya quruluşlarını həyata keçirmişdir. Belə əsərlərdən olan 1993-cü ildə yaratdığı “Soyqırım” adlı tablosunda yaşanmış faciəyə bir sənətkar münasibətinin əksini olduqca həssas formada çatdırmağı bacarmışdır. Faciənin təfərrüatı bir rəssamın yaratdığı tabloda özünün bütün ağırlığı ilə kətana köçürülməsi səhnəsi kompozisiyanın əsasını təşkil edir.

Beləliklə, Xalq rəssamı Hüseynqulu Əliyevin təsviri sənətin istər qrafika, istərsə də rəngkarlıq sahəsində yaratdığı bir çox əsərlərində insani yaşantılar əsasən simvollaşdırılmış bədii ifadələrlə mövzunun

dərin qatlara varan məzmun açıqlamasını üzə çıxarır. Rəssam istər ağ-qara ziddiyyəti ilə nəqli xarakter daşıyan, istərsə də uyğun rəng münasibətlərində yaratdığı əsərlərində məkan, obraz və elementlər arasındakı uğurlu əlaqələndirməni verməklə öz məqsədinə hər zaman yüksək səviyyədə nail olmuşdur. İstedadlı rəssam Hüseynqulu Əliyevin milliliyin önə çəkilməsində, eləcə də şəxsi hisslərinin, insani yaşantıların tərənnümündə mükəmməl bədii vasitələrdən istifadəyə üstünlük verdiyini qeyd etməyə əsas verir.

Fəslin "**Xalq rəssamı Hüseynqulu Əliyevin portret əsərlərinin bədii xüsusiyyətləri" adlı II paraqrafında** rəssamın portret janrında olan bir çox maraqlı əsərləri təhlilə cəlb olunur. Cəlil Məmmədquluzadə adına Naxçıvan Ədəbiyyat Muzeyində saxlanılan "Midhət", "C.Məmmədquluzadə", "C.Məmmədquluzadə və oğlu Ənvər", "Salman Mümtaz", "C.Məmmədquluzadə ailə üzvləri ilə", "Əhməd Cavad", "Əzim Əzimzadə", "Y.V. Çəmənzəminli" kimi çoxsaylı əsərləri rəssam-heykəltəraşın yaradıcılıq axtarışlarının gözəl bəhrəsi kimi diqqəti maraq doğurur. Bu portretlərdə rəssam obrazların daxili aləmini göstərmək üçün təsvir etdiyi şəxsiyyətləri səciyyələndirən bir sıra cəhətləri xüsusi ilə vurğulamışdır. Bu əsərlərdə obrazların psixoloji dərinliyi, sadəliyi, zahiri cizgilərin daxili aləmin güclü şərhi ilə üzvü bağlılığı aydın hiss olunur. Muzeydə nümayiş etdirilən professorlardan Abbas Zamanovun, Əziz Şərifin, M.C. Cəfərovun, şairlərdən Məmməd Arazın, Xəlil Rzanın qrafik üslubda işlənmiş portretləri və şair "Almaz İldırımın dünyası" qrafik illüstrasiyasından məlum olur ki, rəssam bu janrın mürəkkəb texniki tələblərinə, cizgi qanunauyğunluqlarına dərindən bələd olmuşdur.

Böyük ədib Hüseyn Cavidin portretinin koloriti obrazın əhval-ruhiyyəsinə uyğun seçilib. Əsərdə Cavidin çatılmış qaşları, üzünün ifadəsi, masaya söykənən əlin gərgin vəziyyəti dövrün ictimai-siyasi ədalətsizliyindən yaranan daxili narahatlığını ifadə edir.

Dünya şöhrətli dövlət və siyasi xadim, ümummilli lider Heydər Əliyevin nurlu siması rəssam-heykəltəraşın yaradıcılığında qırmızı xətt kimi gəlib keçir. O, istər rəssamlıq əsərlərində, istərsə də müxtəlif materiallardan hazırladığı barelyef və büstlərdə təkcə portret oxşarlığına nail olmamış, eyni zamanda ulu öndərin mənəvi aləmini də verə bilmişdir.

Xalq rəssamının mahir fırçası ilə yaratdığı "Ümummilli lider" portretində görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan dövlətini dünyada tanıtmaq uğrunda apardığı mübarizə istedadla seçilmiş detallarla ifadə olunmuşdur. Başı üzərində dalğalanan dövlət bayrağımızın və addımlamaqda olan yer kürəsinin təsviri ümummilli liderin mübariz ruhunu və dünya şöhrətini çox dolğun şəkildə mənalandırır.

Hüseynqulu Əliyevin portret janrında yaratdığı əsərlərində dərin psixoloji yanaşmasının nəticəsi olaraq, obraza olan şəxsi münasibətinin özünü aydın şəkildə büruzə verdiyinin şahidi oluruq. Belə əsərlərin parlaq nümunələrindən biri olan "Akademik Zərifə xanım Əliyevanın portreti" adlı rəngkarlıq əsərində alim-ana obrazıdır. Əsasən tünd çalarlarda həll edilmiş tabloda obrazın parlaq üz ifadəsi sanki bütün əsərin məna-dəyərinə bir parlaqlıq bəxş edir. Zərifə xanımın bir qədər yana doğru baxan nəzakətli ifadəsində onun həm xarakteri, dərin dünyası böyük məharətlə öz əksini tapmışdır. Qara pencəyin üzərindən verilmiş köynəyin enli ağ boyun hissəsi üz ifadəsinin parlaq görünməsinə xüsusi imkan yaratmışdır. Boyundan asılmış sadə mirvarilərin parlaqlığı da eyni məqsədi daşıyır. Burada həm də bir qadının ciddiyyəti ilə zərif zövqünün bir arada verilməsi nüansı da diqqəti cəlb edir.

2011-ci ildə yaradılmış ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbovla birgə tablosu öz səmimiyyəti ilə diqqəti cəlb edir. Əsərdə maraqlı nüans qarşılıqlı obrazların bir sərgidə əks olunmalarıdır. Heydər Əliyev və Vasif Talıbovun yan-yana dayanaraq qürur və fəxarət hissi ilə Azərbaycan xəritəsinin bir tabloda özünəməxsus verilməsi olduqca maraqlı çalarla işlənmişdir.

2011-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbova həsr edilmiş portret əsərində də tünd fon üzərində verilmiş obraz təsvirdə onun ciddiyyəti ilə səmimiyyəti bir arada böyük ustalıqla həll edilmişdir. Əsərdə verilmiş şəxsiyyətin siyasi-ictimai fəaliyyəti, eləcə də onun bir Azərbaycan vətəndaşına layiq məğrur və təvazökar duruşuna rəssam psixoloji dəqiqliklə bədii izahat vermişdir. Bütün bunlar üçün rəssam tünd fon üzərində yaxın tonlarla həll edilmiş obrazın geyim tərzini əlaqələndirməklə ciddiyyətin

yüksək həllinin əldə edilməsi ilə yanaşı, sifət cizgilərinin daha işıqlı görünməsinə imkan yaradan həmin rəng həlli sayəsində səmimiyyətin parlaq təcəssümünü də nəzərə çatdırmışdır.

Cəlil Məmmədquluzadənin portretini Nəriman Nərimanovla birlikdə təqdim etmək şəxsiyyəti zəmanəsi və tarixi simaları ilə əlaqədə təsvir etmək baxımından mükəmməl alınmışdır. İnsan və məkan sintezini uğurla əlaqələndirməyi bacaran sənətkar obrazları kitabların sıx yerləşdirildiyi rəfləri, divarda kiçik bir fraqmentinin verildiyi tablonun olduğu ciddi və yaradıcı bir məkan daxilində həll etməyi məqsədəuyğun hesab etmişdir.

Hüseynqulu Əliyev sıravi insanların da portretlərini eyni həvəslə yaradır. Sadə əmək adamı olan "Əli ustanın portreti" onun peşə-əmək mühiti ilə birlikdə təqdim olunur. Hətta ailə silsiləsindən olan "Həyat yoldaşım", "Mənim Leylam", "Qızımın portreti" rəsmlərində də səlis kompozisiya quruluşu nümayiş etdirmişdir.

İstedadlı rəssam bir çox qrafik tablolarında da fərqli obrazlara müraciət edərək dəqiq xarakterik cizgilərlə tamaşaçısının diqqətini cəlb etməyi bacarmışdır. 1981-ci ilə aid karton üzərində tuş, pero ilə işlənmiş "Nəcəf kişinin portreti", 2017-ci ilə aid "Kamil müəllim" portret nümunəsində də rəssamın xətti ifadələrlə, ağ-qara ziddiyyətində meydana çıxardığı növbəti sənət nümunəsi ilə tanış oluruq.

Maraqlıdır ki, Hüseynqulu Əliyev özünün avtoportretlərini də kompozisiya çərçivəsində çəkmişdir. Biz həmin avtoportretlərdə Xalq rəssamını ailə üzvləri, nəvələri və sənət dostları ilə bir yerdə görürük. Kompozisiyalı rəsm əsərləri yaratmaq, portret rəsmlərində də səciyyəvi kompozisiya detalları əks etdirmək rəssamın təkcə həyatı, təbiəti və insanı təqdim etməklə qalmayıb, həm də hər dəfə yeni bir fikir ifadə etmək istedadını da nümayiş etdirir. Bu mənada Xalq rəssamı Hüseynqulu Əliyevin rəsm əsərləri, xüsusən də portret işləri obrazın fərqli görünüşü ilə yanaşı, həm də onu tamamlayan fikir və mətləbləri, detalları və ideyaları da canlandırır.

Fəslin **"Hüseyqulu Əliyevin yaradıcılığında fəlsəfi düşüncənin bədii əksi"** adlı **III paraqrafında** qeyd olunur ki, Hüseynqulu Əliyevin təsviri sənətin istər rəngkarlıq, istərsə də qrafika sahəsində həyata keçirdiyi tablolarında fəlsəfi yanaşmanın bədii ifadəsi

böyük bir hadisənin təəssüratını olduqca təsirli və fərqli formalarla əks etdirir.

İstedadlı rəssam Hüseynqulu Əliyevin yaradıcılığında bəzən həyata, yaşama, insanlığa qarşı olan ədalətsizliyin, bəzən isə real yaşantıların içindəki ən həssas anların bədii ifadəsində təsvirlərin real deyil, daha mücərrəd formalarla, izləyicisini daha dərindən düşünməyə sövq edərək hadisələrin fəlsəfi dərkinə yönəlmiş əsərlərin dərin məna kəsb edən özünəməxsusluğu ilə sıx rastlaşırıq. Real və yaxud qeyri-real formalarla məzmunun dramatik açıqlamasına yönəlmiş fərqli kompozisiyalarda mövzuya fəlsəfi yanaşma sənətkarın ekzistensialist düşüncə tərzini meydana çıxarır.

Rəssamın belə əsərləri sırasında Naxçıvanda şəxsi kolleksiyada qorunan 1993-cü ildə işlənmiş "Məchul əmrlər" adlı əsərini xüsusi qeyd etmək olar. Əsərin dərin düşüncə tələb edən məzmun açıqlamasında insan və insanlığa düşmən mənfurluğun sərt simasının tərənnümü dayanmışdır. Bunun üçün kompozisiyanın bədii ifadəsində məkan təsvirinin canlandırılmasında təzad təşkil edən rəng əlaqəsinin verilməsi ilə məqsədin daha aydın açıqlanması əldə edilmişdir.

Hüseynqulu Əliyevin bir əsərində yaşananlara verdiyi fəlsəfi bədii ifadə tərzinin bariz nümunəsini 2016-cı ildə qrafik üslubda həyata keçirdiyi "Soyqırım" əsərində daha parlaq şəkildə görmək mümkündür. Əsərdə rəssam yaradıcı fikirlərinin iri bir ağacın tərənnümü ilə ifadə etməyə çalışmışdır. Ağ fon üzərində qəhvəyi və yaşıl kimi rəng həllinin ifadə etdiyi dərin məna şaxələnərək kök atan, yamyaşıl yarpaqlı bir ağacın kəsilməsi açıqlanır. Köklərinin daha dərində olduğunu göstərən təsvirdə rəssam sanki onu canlı xarakter olaraq səhərdəki həyata, yaşama sinə gərən məğrurluğunu böyük ustalıqla canlandırmışdır. Dərinlərə doğru uzanaraq öz möhtəşəmliyində bütün əzablara, insan taleyinə qarşı çıxan mənfurluğa baxmayaraq, qürurlu siması ilə dünyanın pisliklərinə meydan oxuyan ağacın kəsilmiş hissələrində kötüklərin üzərində tarixin müxtəlif illərindən yaşanmış soyqırımların illəri həkk edilərək sanki "Unutmadıq! Unutmarıq!" şüarını bəyan edir. Nə qədər kəsilsə də, dərin kökləri üzərində dayanmış gövdəli ağacın budaqlarının artığını, budaqlarda yamyaşıl yarpaqların yenidən rənglənərək öz gücünü itirmədiyini sənətkar böyük məharətlə yaradaraq mövzuya fəlsəfi dəyər vermiş, izləyicisini düşünməyə sövq etmişdir.

Bir çox hallarda adi real səhnə təsvirində yaşanan böyük bir təəssüratı sənətkar həm həyatın reallığı kimi, eyni zamanda ona fərdi yaradıcı münasibətini bildirməklə bir yerdə mükəmməl şəkildə həyata keçirməyi ustalıqla bacarır. Məsələn, rəssamın 1993-cü ildə yaratdığı, hazırda Türkiyədə şəxsi kolleksiyada qorunan "Nəsillər" adlı qrafik tablosu qeyd edilənlərə bariz nümunə olaraq göstərilə bilər. Qeyd edilən əsərdə yaşlı ər və arvadın arxadan olan təsvirləri canlandırılmışdır. Onlar tağlı arakəsmədən bir-birinə dayaq olaraq keçib gedirlər. Bu gediş ömür yoluna bir işarədir... Uzun bir həyat yolu keçmiş, artıq sona gəlmiş bir ömrün işarəsi...

Siyasi mövzulara simvolik yanaşma, detalların özlüyündə açıqlamasını verdiyi mövzular Hüseynqulu Əliyevin yaradıcılığında geniş yer alır. Burada sərt dinamizmi meydana çıxaran rəssamın məhz kəskin yanaşması, sənətkar mövqeyidir. O, bu prinsipiallığı təsviri sənətin müxtəlif növlərində həyata keçirdiyi əsərlərində ifadə etməyə hər zaman müyəssər olmuşdur. Misal olaraq rəssamın 2008-ci ildə yaratdığı "İntiqam" adlı plakatında qeyd edilən xüsusiyyətlərin əsaslarını görmək mümkündür.

2013-cü ildə təsviri sənətin qrafika sahəsində həll edilmiş "Parçalanmış zəncir" əsəri fərqli və diqqəti cəlb edən kompozisiya quruluşuna malikdir. Boz fon üzərində qara və qəhvəyi çalarlarla verilmiş detalların ifadə etdiyi dərin məna dağılmış böyük bir ittifaqın, SSRİ-nin parçalanmasına zəncirin parçalanaraq dağılması ilə işarə etmişdir. Lakin burada dağılan zəncir halqaları adi bir element kimi deyil, mövzunun dərin məzmun açıqlamasını verən detal təsvirləri ilə rəssamın fərqli yaradıcı tapıntısı üzərində qurulmuşdur. Həmin detallar gerbin üzərində yer alan oraq və çəkic, eləcə də beşguşəli ulduzların dağınıqlığı ilə kompozisiya bütövlüyünü meydana çıxarır.

Mücərrəd kompozisiya quruluşu ilə böyük anlam, dərin məna daşıyan "Haray" əsərinin adını xüsusi qeyd etmək olar. Sənətkar yaşananların, faciələrin ağırlıqlarına özünəməxsus xüsusi ifadə formasında bədii izahını verir. Əsərdə bir-birinə qarışan, axan rənglər həyatın xaosunu, qarmaqarışıqlığını canlandırır.

Dissertasiyanın **"Xalq rəssamı Hüseynqulu Əliyevin yaradıcılığında bədii təsvir vasitələri və janr seçimi"** adlı II fəsli də dörd paraqrafdan ibarətdir. Bu fəslin **"Xalq rəssamı Hüseyqulu**

**Əliyevin heykəltəraşlıq əsərlərinin bədii xüsusiyyətləri”** adlı **I paraqrafında** sənətkarın monumental, dəzgah (büst-portretlər, barelyef-pannolar), monumental-dekorativ heykəltaraşlıq (kiçik ölçülü plastika) nümunələri təhlil edilir. Araşdırma və təhlillər göstərir ki, o, heykəlləri adətən gips, tonlaşdırılmış gips, beton, şamot, tuncdan hazırlayır.

Hüseynqulu Əliyevin heykəltəraşlıq nümunələri Naxçıvan şəhərinin və muxtar respublikanın bir neçə rayonlarının mənzərəli yerlərini bəzəyir, yerləşdiyi məkanın mahiyyətini açıqlayır. Muzey ekspozisiyasında onun müxtəlif formalı heykəltəraşlıq nümunələri də özünəməxsus yer tutur. Hüseynqulu müəllimin yaratdığı böyük demokrat ədib Cəlil Məmmədquluzadənin ədəbiyyatımıza gətirdiyi “kiçik adam”ların – Məhəmmədhəsən əmi, Novruzəli, Usta Zeynal və başqalarının plastik heykəlləri həmin obrazların zahiri görkəmini və mənəvi aləmini aydın surətdə ifadə edir. C. Məmmədquluzadənin “Quzu”, “Saqqallı uşaq”, “Konsulun arvadı”, “Qurbanəli bəy” hekayələri mövzusunda işlənmiş barelyefləri onun yumoristik qəhrəmanlar yaratmaq və orijinal tapıntılara meyl etmək bacarığını aşkar edir. Onun C.Məmmədquluzadənin gipsdən hazırlanmış barelyefi, C.Məmmədquluzadənin “Ölülər” əsərində İsgəndər surəti, “Molla Nəsrəddin” kimi əsərləri uğurlu heykəltəraşlıq nümunələridir.

Azərbaycanda ilk monumental atlı heykəlin müəllifi məhz Hüseynqulu Əliyev olmuşdur. Koroğlu meydanındakı “Koroğlu” heykəli dinamik kompozisiyası ilə maraq doğurur. Tuncdan tökülmüş monumental abidə xalq qəhrəmanının əzəmətini nümayiş etdirir. Koroğlu misri qılınc əlində şahə qalxmış əfsanəvi Qıratın belində dəli nərəsi ilə sanki Çənlibelin qoç igidlərini yağı düşmən üzərinə hücuma səsləyir. İlkin variantı 1988-ci ildə betondan ucaldılmış abidəyə 2008-ci ildə tuncdan olan hissəsinə yeni tərtibat verilmişdir. Sənətşünas Ü.Veysəllinin qeyd etdiyi kimi, *“Əsər bir də ona görə maraqlıdır ki, Azərbaycanda at üzərində ucaldılan ilk monumental abidədir. Naxçıvanda qoyulan bu möhtəşəm abidə heykəltəraşın yaradıcı imkanlarının getdikcə artdığını, onun peşəkar məharətinin xeyli yüksəldiyini göstərir. Heykəl olduqca əzəmətli, aydın və ahəngdar*

*plastik formada həll olunmuşdur. Əsərə müxtəlif nöqtələrdən tamaşa etdikdə onun siluetinin yeni-yeni məziyyətləri üzə çıxır”*[8].

Hüseynqulu Əliyevin heykəltəraşlıq nümunələri Naxçıvan Muxtar Respublikasının bir sıra bölgələrinin mənzərəli guşələrini bəzəyir. Onun monumental əsərləri önündə qoyulduğu binanın və yerləşdiyi məkanın mahiyyətini açıqlayır. Məsələn, Olimpiya İdman Kompleksinin qarşısındakı “Disk atan” heykəli (2002, beton) bu qəbildəndir. Hüseynqulu Əliyev “Disk atan” heykəlində böyük kürə formasında həll etdiyi pyedestal üzərində əlindəki diski var gücü ilə fırladıb irəli atmağa hazır olan idmançını təsvir edib. Mürəkkəb hərəkətdə verilmiş idmançının gərilmiş əzələləri peşəkarlıqla ərsəyə gətirilib və bu gərginlik onun mimikası ilə tam uyğunluq təşkil edir. Heykəlin icrasında üstünlük onu təşkil edən dairəvi formalara verilmişdir. Kompozisiyanın ümumi dairəvi quruluşu, idmançının açıq səma fonunda dəyirmi siluet kimi görünən başı, əlindəki diskə uyğun olaraq onun dayandığı postamenti də kürə görkəmində yaratmışdır.

Sənətkarın görkəmli şəxsiyyətlərə həsr etdiyi bir sıra heykəltəraşlıq nümunələri vardır. Onlardan biri ulu öndər Heydər Əliyevin hazırda Naxçıvan Tarix Muzeyində saxlanılan büstüdür. Mükəmməl dəqiqliklə işlədiyi bu əsərində heykəltəraş öz məqsədinə uğurla nail olmuşdur.

Hüseynqulu Əliyev İranın Urmiya şəhəri fərmandarlığında Xomeyninin büstünün (1992, tonlaşdırılmış gips), Türkiyənin Qars valiliyinin binasında isə Atatürkə həsr olunmuş kompozisiyalı (2002, tonlaşdırılmış gips) qorelyefin müəllifidir.

Heykəltəraşa insan şəxsiyyətinin əhəmiyyətini daha yaxşı anlamağa imkan verən xatirə heykəli üzərində iş ona portret obrazlarının yaradılmasında kömək etdi. 1989-cu ildə Naxçıvan şəhərində görkəmli rəssam Bəhruz Kəngərlinin xatirəsinə ucaldılmış qəbirüstü abidəsinə müəlliflik edən H.Əliyev sənətkarın real, canlı görüntüsünü yaratmaq üçün onun ayaqüstü heykəl təsvirini sabit formada deyil, öz hərəkətliliyində canlandırmağı məqsədəuyğun hesab etmişdir. Təqdim edilmiş təkfiqurlu əsərdəki emosionallıq heykəltəraşın

---

[8] Veysəlli Ü.N. Naxçıvan rəssamlarının yaradıcılığında üslub və istiqamətlər. – Namiz. diss. avtoreferatı, – Bakı, – 2011, –18 s.

özünəməxsus bədii ifadə tərzi ilə əks olunmuşdur. Bir ayağını digərinin üzərinə çarpazlayan, plaşını çıxararaq çiyni üzərinə atmış Kəngərli əsərdə özünün rahat duruşu ilə maraq oyadır.

Görkəmli oftalmoloq Paşa Qəlbinurun 1998-ci ildə həyata keçirilmiş qorelyefini rəssam tonlaşdırılmış gips materialla yaratmışdır. Göz klinikasında ucaldılmış heykəl özünün ton fərqi ilə interyerdə xüsusi əhəmiyyət kəsb etməkdədir.

Heykəltəraşın obrazları həcmliliyi, plastikliyi ilə fərqlənir. Plastika, ritm, siluet və kompozisiya kimi bədii forma elementləri heykəltəraşlıq obrazlarının emosional təsir qüvvəsini təmin edir. Bu sırada sənətkarın monumental-dekorativ heykəllərindən olan “Fərhad süd arxı çəkərkən”, “Bulaq başında qızlar” əsərlərini göstərmək olar.

Beləliklə, geniş və hərtərəfli yaradıcılıq imkanına malik olan rəssam-heykəltəraş Hüseynqulu Əliyev fərqli üslublara müraciət edərək uğurlu əsərlərə müəlliflik etmişdir. İti müşahidə qabiliyyətli sənətkar təsvir etdiyi şəxsiyyətlərin xarakterini dolğun göstərmək baxımından hər zaman fərqli texniki vasitələrə və ifadə metodlara müraciət edir.

Fəslin **“Hüseynqulu Əliyevin əsərlərində təbiət motivlərinin bədii ifadəsi”** adlı **ikinci paraqrafında** qeyd olunur ki, Xalq rəssamı Hüseynqulu Əliyevin mənzərə janrında çəkdiyi rəsm əsərləri də özünəməxsus rəng çalarlarına və kompozisiya elementlərinə görə təsviri sənətin fərqli təəssüratını yaradır. Mənzərə rəsmlərində müşahidə olunan əlavə bir cəhət də rəssamın realist təsvirlərində romantika elementlərinin olmasıdır. Yağlı boya ilə çəkilmiş “Naxçıvanda bahar” rəsmində təbiət gözəlliklərinin fonda təsvir edilmiş qürurlu dağların timsalında canlandırılması, hətta yaşıl çəmənlikdə sanki yel qanadlı ağ atların diqqət mərkəzinə çəkilməsi cizgilərdəki reallıqlara romantik görkəm verir.

“Babaların yolu”, “Ağ at”, “İpək yolu”, “Kənd mənzərəsi” rəsmlərində də rənglər real təsvirləri, dağlar isə məğrurluq və qürurun çox dolğun romantikasını, “Kənddə toy” tablosu isə süjetli rəsm əsəri kimi kənd toylarının görünüşünü, ritmini və romantikasını bütün təbiiliyi ilə əks etdirir. Bu Azərbaycan kəndlərinin toy ənənəsinin rənglərlə ifadə olunmuş orijinal tablosudur. Eynilə də “Bağda” tablosunu təbiiliyinə görə mahir bir fotoqrafın çəkdiyi şəkildən seçmək çətindir.

Hüseynqulu Əliyevin böyük məharətlə yaratdığı "Göygöl" silsiləsi Azərbaycan təsviri sənətində realist-romantik rəssamlığın nadir nümunələri hesab edilməyə layiqdir. O, real gerçəklikdə təbiətdəki dörd fəslin də gözəlliklərini özündə əks etdirən Naxçıvan Göygölünün timsalında kətan üzərində bütün rənglərin cazibədarlığını canlandırmağı bacarmışdır.

Rəssamın realistik üslubda yaratdığı mənzərə əsərlərində milli dəyərlərin, vətənə, doğma diyara sonsuz sevginin əsaslarının məharətlə ifadə olunmasıdır. "Mənim Naxçıvanım", "Ordubad mənzərəsi", "İlanlı dağ", "Göygöl", "Payız", "Baharın yolu", "Payız motivi" və digər bu kimi əsərləri qeyd olunanlara parlaq nümunə göstərilə bilər. *"Həmin əsərlərdə incə lirik duyğular ilə pərvaz edən romantik xəyal və arzular bir-birinə qovuşur. Mənzərələrin mövzusu, təsvir motivləri ilə həmahəng olaraq rəssamın dəsti-xətti də dəyişir, ehtiraslı, həyəcanlı palitrasında postmodernistlərin üslubunu xatırladan rəng yaxılarının titrəyişi və narahat ritmi aşkara çıxır"*[9].

Hüseynqulu Əliyevin payız mövzusuna həsr edilmiş bir neçə tablosu vardır ki, bunların hər biri təbiət motivlərinin fərqli kompozisiya quruluşundakı özünəməxsus bədii ifadə vasitələri ilə diqqəti cəlb edirlər. Məsələn, "Payız" adlı bir tabloda rənglər daha çox mavi, sarı yaşılı tonlarla verilərək xəzan olmağa başlayan yarpaqların tökümünü tərənnüm edir. İri ağaclar ön planda verilərək şəhərin arxada qalan görüntüsünün önünə keçməklə təbiətin nəfəsini hiss etdirməyə xidmət edir. "Payız motivi" adlı digər bir əsərdə sənətkar mənzərədən ilham alan, təbiət rənglərini materiala köçürən rəssam gözü ilə onu dəyərləndirməyə çalışmışdır. Sıx şəkildə sıralanmış qızılı, sarı, qırmızı, narıncı, yaşılı, qəhvəyi, sarı yarpaqlı ağacların arasında rəssam və onun qarşısında olan planşetin təsviri verilmişdir.

"İpək yolu", "Ağ at", "Göygöl" kimi rəngkarlıq əsərlərində Hüseynqulu Əliyev təbiət motivlərinin tərənnümündə onların uzaqdan və yaxud yaxından olan görüntüsünün real formasını canlandırarkən, burada digər detalları kiçik ölçüdə həll etməklə, həm də mənzərə gözəlliyinin özünü qabarıq göstərməsinə imkan yaratmışdır. "İpək

---

[9] Veysəlli Ü.N. Naxçıvan rəssamlarının yaradıcılığında üslub və istiqamətlər. – Namiz. diss. avtoreferatı, – Bakı, – 2011, – s.17.

yolu" tablosunda uzaqdan görünən dağların daha arxada mavi tonda, önə doğru isə tündləşən, qızılı, narıncı çalarlara bürünən çölü əks etdirərkən ön səhnədə yol alan dəvə karvanın təsviri ilə əsərin maraq dairəsinə fərqli bir dəyər bəxş etmişdir.

Rəssamın natürmort silsiləsi Hüseynqulu Əliyevin peyzaj rəsmlərinin üzvi tərkib hissəsidir. Natürmort rəsmlərindəki təsvirlər sanki onun çəkdiyi mənzərələrdən seçilib ayrılmış və bir qədər böyüdülmüş tablolardır. Bundan başqa, Hüseynqulu Əliyev natürmort əsərlərində də kompozisiyaya meylli sənətkar missiyasını həyata keçirir. Buna misal olaraq "Dolça ilə natürmort", "Limonla güllər", "Şərab ilə balıq", "Alma ilə yasəmənlər", "Meyvələrlə qızılgüllər", "Küpə ilə natürmort", "Xalça ilə natürmort" və nəhayət, "Venera ilə natürmort" kimi rəsmlərini və s. göstərmək olar.

"Xalça ilə natürmort" , "Küpə ilə natürmort", "Şərablar" adlı əsərlərində məişət avadanlıqları kimi detallarla meyvələrin, güllərin sintezli ifadəsindən yaradılmış kompozisiyalarda ənənəvi rəngkarlıq prinsipləri ilə müasir üslublu tabloların yüksək bədii dəyərini təsdiqləyir.

Beləliklə, Hüseynqulu Əliyevin təsviri sənətin istər rəngkarlıq, istərsə də qrafika janrında yaratdığı əsərlərindəki yer verdiyi təbiət motivlərinin təsvirində əsas səciyyəvi xüsusiyyət kimi onun istənilən məkanda daha qabardılmış, ön plana çəkilmiş formalarda təsviri xüsusi məhəbbətlə həll etmək, hər bir əsərində təbiətə olan vurğunluğunu, heyranlığını izah etmək cəhdi dayanır.

Fəslin "**Hüseynqulu Əliyevin əsərlərində dinamizmin özünəməxsus bədii əksi"** adlı **üçüncü paraqrafında** göstərilir ki, Hüseynqulu Əliyevin yaradıcılığına məxsus əsərlərin dinamizmi bəzən element və detalların hərəkətinə görə öz həllini tapırsa, əksər hallarda buna mövzuya fərqli yanaşmadan irəli gələn sərt kompozisiya quruluşu və dinamik rəng oyunları ilə nail olduğunun şahidi oluruq.

Hüseynqulu Əliyevin yaratdığı karikaturaların da anlaşıqlı ifadə dili onların hərəkətliliyi, dinamikliyi sayəsinə olduqca düşündürücüdür. 1993-cü ildə yaradılmış, tuş, pero ilə işlənmiş karikaturalarında qeyd olunan fikrə parlaq nümunə olan əsərlərin maraqlı ifadə dili diqqəti cəlb edir. "Nəticəsiz" əsərində başına qara maska keçirilmiş bir oğrunun məmləkəti talan etmək niyyəti, lakin ondan əvvəl artıq buraların

talandığı onun qurduğu planın nəticəsizliyi ilə bitmişdir. Yerə səpilmiş boş qalan səbətlərə, şüşələrə baxan talançının təəccübü onun qapadığı sifət cizgilərini təsəvvür etməyə belə imkan yaradır.

İstanbul şəhəri "Aydın Doğan" Karikatura Muzeyində qorunan "Şeytana qul" (1998) əsəri ifadə etdiyi dərin mənası ilə izləyicisini düşünməyə vadar edir. Kiçik bir şeytanın iri cüssəli, güclü əzələyə məxsus insanın boynunda oturaraq onun əmri ilə hərəkətə məcbur etməsi burada insanı idarə edən gücün biləkdə, vücudda deyil, zəkada, beyində, idrakda olduğuna işarə etmək yolunda sənətkar tapıntısı maraq oyadır.

1999-cu ildə yaradılmış bir neçə dinamik kompozisiya quruluşunda həyati həqiqətlərə, insani yaşantılara, insan və onun xislətinə bağlı özünəməxsus bədii ifadələrlə tamaşaçısının marağına hakim kəsilməyə davam etmişdir. Tuş, pero işlənmiş həmin yaradıcılıq nümunələrində dərin məna dəyərin fərqli səhnə təcəssümü hər bir əsərin maraqla izlənməsinə şərait yaratmışdır. "Dəyər" adlı əsərdə iki üz-üzə dayanmış xoruzla verilmiş tərəzinin bir gözündə iki çörək, digərində isə kitabın ağırlığı ölçülməkdədir. Burada məcazi olaraq həqiqi çəkinin deyil, onların həqiqi dəyərlərinin ağırlığıdır.

Hüseynqulu Əliyevin yaradıcılığına məxsus bu tipli əsərlərdəki kompozisiyalar özündə əsasən təsvir obyektlərinin öz aralarında qarşılıqlı əlaqəsi ilə onların simmetriyası və ya tarazlığı, konturlarının dinamikası üzərində qurulması əsasında həyata keçirilmişdir. Məsələn, "Tərəqqi" karikaturasına diqqət yetirdiyimizdə böyük bir nisbətin, həyatın dinamikasından geri qalmanın özünəməxsus kompozisiya quruluşunda təqdim edildiyinin şahidi oluruq. Kosmosa, ulduzlara doğru hərəkət edən raketin pəncərəsindən onun arxasınca düşərək yetişməyə çalışan tısbağa şəkilli avtomat arabanın üzərindəki obrazın həyəcanı hər birimizdə yumor və təəssüf hissi yaradır.

Xalqımızın zəfər çaldığı bu günlərdə, böyük fəxarət və qürurla şahidlik etdiyimiz tarixi dövrdə Hüseynqulu Əliyevin hələ 2009-cu ildə inamla yaratdığı "Qələbə bizimlədir" adlı plakatın aktuallığı özünü təsdiq edir. Təsvirin yuxarı hissəsində çiçəklərlə bəzənmiş çələng zəfərin, qələbənin simvolu kimi verilmişdir. Bir-birinə dəstək olan, sıx yumruq kimi birləşən daş kimi sərt, möhkəm əllər isə zəfərə inanan

gücün qayəsini qürurla əks etdirərək əsərin dinamik təsir gücünü ifadə edir.

Beləliklə, rəssamın süjetli kompozisiyalarında, karikatura və plakat əsərlərindəki dinamik kompozisiyalarının məzmununu açan nisbətlər, təzadlar əsasında sərt təsvir maneraları ilə özünü göstərmiş, onun bədii təfəkkür fantaziyasından doğan kompozisiyanın əsrarəngizliyini təmin etmişdir.

Fəslin **"Hüseynqulu Əliyevin Naxçıvan Musiqili Dram Teatrına töhfələri"** adlı **dördüncü paraqrafında** göstərilir ki, Hüseynqulu Əliyev Azərbaycan teatr rəssamlığının inkişafına da məsuliyyətlə xidmət edir. Hüseynqulu Əliyev 1989-cu ildən başlayaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam vəzifəsində çalışmışdır. Bildiyimiz kimi teatrın uğurlu alınan tamaşası elə mükəmməl səhnə tərtibatından başlayır. H.Əliyev tərtibat verdiyi tamaşalarda tək bir detal, sadə forma və rənglərin dili ilə əsərin ideyasını yığcam və mənalı şəkildə tamaşaçıya çatdırmışdır. Bunu da öz növbəsində onun istedadının dünyagörüşünün, təcrübəsinin, zövqünün, sənətə olan sevgisinin nəticəsi kimi qiymətləndirmək olar[10].

Rəssamın çəkdiyi eskizlər, qurduğu kompozisiyalar, tapdığı yeni rəng çalarları onun özünəməxsus sənət duyumunu göstərir. Bədii tərtibat verdiyi əsəri diqqətlə oxuyar, əhatə etdiyi dövrün tarixini, mədəniyyətini, geyim tərzini dəqiqliklə araşdırardı. Məhz bu səbəbdən onun verdiyi tərtibat sadəliyi, ciddiliyi və əsərin mövzusu ilə həmahəng olması ilə seçilib.

Teatrın baş rəssamı Hüseynqulu Əliyev 1990-cı ildə "Özümüz bilərik", 1991-ci ildə M.S. Ordubadinin "Ürəkaçanlar", İslam Səfərlinin "Xeyir və Şər" əsərlərinin səhnə tərtibatını vermişdir. Bu tərtibatlarda rəssamın özünəməxsus iş texnikası, rəng koloriti diqqətə çarpır.[11] Bundan əlavə onun işlədiyi tərtibatlardan 1993-cü ildə "Məşədi İbad", "Arvadımın əri", "O, olmasın bu olsun" əsərlərinə tərtibat vermişdir. 1997-ci ildə "50 yaşında cavan", 1999-cu ildə "Kələkbaz qızlar", 1999-

---

[10] Allahverdiyeva Həbibə. Naxçıvan Dram Teatrında (1991 – 2008-ci illərdə) tamaşaların bədii tərtibatı. // Naxçıvan Dövlət Universiteti. Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri. Beynəlxalq Konfrans (25-26 oktyabr 2013) – Naxçıvan – 2013 – s.108.

[11]Yenə orada.

cu ildə “Dörd əkiz qardaş”, 2000 -ci ildə “Topal Teymur”, 2001-ci ildə “Mənim ərim dəlidir”, 2003-cü ildə “Mərhəmət məhəbbət deyil”, 2005-ci ildə “Afət”, 2006-cı ildə “Arşın mal alan” tamaşalarının adlarını çəkmək olar.

Naxçıvan teatrında səhnəyə qoyulmuş əsərlərin bədii tərtibatında tamaşanın uğuru baxımından öz əvəzolunmaz yerini, əhəmiyyətini göz önündə tutmuş rəssam, 2007-ci ildə “Səyavuş”, 2008-ci ildə isə Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı” əsərlərinin bədii tərtibatını yüksək səviyyədə hazırlamış, Ümummilli lider Heydər Əliyevin 85 illiyi münasibəti ilə əlaqədar olaraq tamaşaya qoymuşdur.

Tamaşaların bədii tərtibatında əsas məsələlərdən biri də geyimlərin təsvirinin verilməsidir. Səhnədə geyim təkcə hadisənin cərəyan etdiyi dövrü əks etdirmir, geyim həm də tamasadakı hər bir obrazın xarakterinin, onun hansı ölkəyə, hətta şəhər və ya kənd mühitinə məxsus olması, geyimin həmin personajın yaşına uyğunluğu yaşadığı cəmiyyətdəki tutduğu yer və hansı sosial təbəqəyə malik olması və s. özündə əks etdirir. Bunu Hüseynqulu Əliyevin 2012-ci ildə tərtibat verdiyi “Şeyx Sənan”, 2014-cü ildə “Ağa Məhəmməd şah Qacar”, 2015-ci ildə “Nadanlıq və ya qəfil telefon zəngi”, 2018-ci il “Xəyyam”[12] tamaşaları üçün yaratdığı tamaşalarda görmək olar.

Hüseynqulu Əliyev səhnəyə qoyduğu hər bir əsərində fəlsəfi fikir, sətiraltı məna vardır ki, teatr rəssamı o fikri, mənanı başa düşərək tamaşaya quruluş verir. Məhz onun ən yüksək xidməti onun düşüncəsi və fırçasının gücü ilə tamaşanın ümumi obrazını mükəmməl səviyyədə yaratmaqdan ibarətdir. Onun tərtibat verdiyi tamaşalarında süjetə uyğun verilmiş dekorlarda istifadə olunmuş rəng koloriti işıq-kölgə fonunda, onun ətrafında olan dekorlarla rəng uyumu, harmoniyası da öz əksini tapmalıdır. İstifadə edilmiş rənglər işıq effektləri ilə harmoniyasında tamaşaçıda müəyyən təsəvvür yaradır.

**Nəticədə** mövzu üzrə araşdırmaya yekun vurulmuş, aşağıdakı qənaətlər əldə edilmişdir:

1. Xalq rəssamı Hüseynqulu Əliyevin təsviri sənətin istər qrafika, istərsə də rəngkarlıq sahəsində yaratdığı bir çox əsərlərində insani

---

[12] Qəhrəmanov Ə. / Ə.Qəhrəmanov, S. İbrahimov, F.Cəfərov. Naxçıvan Teatrının Salnaməsi (1883-2008) – Naxçıvan: Əcəmi – 734 s.

yaşantılar əsasən simvollaşdırılmış bədii ifadələrlə mövzunun dərin qatlara varan məzmun açıqlamasını üzə çıxarır;

2. Rəssam istər ağ-qara ziddiyyəti ilə nəqli xarakter daşıyan, istərsə də uyğun rəng münasibətləri əsasında yaratdığı əsərlərində məkan, obraz və elementlər arasındakı uğurlu əlaqələndirməni verməklə öz məqsədinə hər zaman yüksək səviyyədə nail olmuşdur;

3. İstedadlı rəssam Hüseynqulu Əliyevin milliliyin önə çəkilməsində, eləcə də şəxsi hisslərinin, insani yaşantıların tərənnümündə mükəmməl bədii vasitələrdən istifadəyə üstünlük verdiyini qeyd etməyə əsas verir;

4. Rəssam portret yaradıcılığında insanın daxili aləminin bəzən köməkçi detalların istifadəsində, bir çox hallarda isə sadəcə dərin cizgi ifadələrlə böyük həssaslıqla həll etmişdir;

5. Hüseynqulu Əliyevin yaradıcılığında fəlsəfi düşüncənin bədii əksi faktorunun bəzən mücərrəd kompozisiya quruluşunda, bəzən isə mövzu üzrə simvolik dəyərləndirilməsi ilə yerinə yetirilməsi bu istiqamətdə olan yaradıcılığının əsas xüsusiyyətidir;

6. Geniş və hərtərəfli yaradıcılıq imkanına malik olan rəssam-heykəltəraş Hüseynqulu Əliyev fərqli üslublara müraciət edərək uğurlu əsərlərə müəlliflik etmişdir. İti müşahidə qabiliyyətli sənətkarın təsvir etdiyi portret əsərlərində şəxsiyyətlərin xarakterini dolğun göstərmək baxımından hər zaman fərqli ifadə üsulları tapmağa nail olmuşdur;

7. Hüseynqulu Əliyevin təsviri sənətin istər rəngkarlıq, istərsə də qrafika janrında yaratdığı mənzərə və natürmort əsərlərində yer verdiyi təbiət motivlərinin təsvirində əsas səciyyəvi xüsusiyyət kimi onun istənilən məkanda daha qabardılmış, ön plana çəkilmiş formalara təsviri xüsusi məhəbbətlə həll etmək, hər bir əsərində təbiətə olan vurğunluğunu, heyranlığını izah etmək cəhdi dayanır;

8. Rəssam əsərlərindəki dinamik kompozisiyanın məzmununu açan nisbətlər, təzadlar əsasında sərt təsvir maneraları ilə özünü göstərmiş, onun bədii təfəkkür fantaziyasından doğan kompozisiyanın əsrarəngizliyini təmin etmişdir.

**Tədqiqat işinin əsas məzmunu iddiaçının mövzu üzrə dərc edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Hüseynqulu Əliyevin yaradıcılıq fəaliyyəti // Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i (Humanitar elmlər seriyası), – Naxçıvan, Qeyrət – 2018. II cild, № 1.(90), – s.145-148.
2. Ömrünü Naxçıvana bağlayan sənətkarın həyat və yaradıcılığı // – AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər"i (İctimai və humanitar elmlər seriyası), – Naxçıvan, Tusi, 2019. № 3, – s.247-252.
3. Hüseynqulu Əliyevin yaradıcılığında natürmort janrı // – AMEA Naxçıvan Bölməsi "Elmi əsərlər"i (İctimai və humanitar elmlər seriyası), – Naxçıvan, Tusi, – 2020. №3, – s. 283-286.
4. Художественное отображение образа человека в творчестве Гусейнгулу Алиева // – "Paradigmata Poznanı", Polşa, – 2020. №4, – с. 84-87.
5. Художественные особенности портретных произведений Гусейнгулу Алиева // – Міністерство освіти І Науки України Державний Вищий Навчальний Заклад. «Ужгородський Національний Університет» Видавничий дім «Гельветика», – 2021. № 326 (додаток 9), – с.200-206.
6. Hüseynqulu Əliyevin yaradıcılığında qrafik əsərlərin bədii təcəssümü // – "Mədəniyyət: Problemlər və Perspektivlər" "Qarabağ Azərbaycandır!" Doktorant və Gənç Tədqiqatçıların XIV Beynəlxalq Elmi konfransının materialları, – Bakı, "ADMİU" nəşriyyatı, – 2021. – s. 288-290.
7. Художественное выражение философского сознания в работах Народного художника Гусейнгулу Алиева // – "Научные Исследования В Сфере Гуманитарных Наук: Открытия XXI Века.Материалы XI Международной научно – практической конференции 26 февраля 2021 года." – с.335-338.
8. Artistic Expression of Caricatures of People"s Artist Huseyngulu Aliyev //Scientific Collection Interconf.İnternational Scientific Discussion: Problems, Tasks, And Prospects. DOİ 10.51582⁄interconf.21-22.06.2021. 23 № 63, 21-22 June, 2021. p.-214-217.

9. Hüseynkulu Aliyevin Portre Resimleri/ İnternational Art Symposium, Uluslararası Sanat Sempozyumu. Anadolu Universitesi. Konfrans materialı. s. 23-24. 22 Haziran. 2021.
10. Artistic Feautures of portrait works of people's artist Huseyngulu Alıyev", Copernicus, 2021- ci il, №326 (додаток 9), s.200-206.

Dissertasiyanın müdafiəsi 18 oktyabr 2022-ci il tarixində saat $14^{00}$-da AMEA Memarlıq və İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115, 4-cü mərtəbə

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Memarlıq və İncəsənət İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.09.2022

Kağızın formatı: A5

Həcm: 42044

Tiraj: 100